# Azərbaycan Məhkəmə Sistemində Məişət Zorakılığı ilə bağlı İşlər

**Qanunun Aliliyi və İnsan Hüquqları Şöbəsi**

**ATƏT-in Bakı Ofisi**

**Dekabr 2013**

# Mündəricat


Mündəricat ... 1

Təşəkkür ... 3

Abreviaturaların siyahısı ... 4

Qısa xülasə ... 5

I. GİRİŞ ... 6

Hesabatın məqsədi, məzmunu və metodologiyası ... 7

II. Məişət zorakılığı ilə bağlı normativ aktlar ... 8

A. Beynəlxalq ... 8

B. Milli ... 11

1. Konstitusiya ... 11

2. Məişət zorakılığına dair qanun ... 11

3. Prezident Fərmanları, Nazirlər Kabinetinin Qərarları və İnsan Hüquqlarının Müdafiəsi haqqında Milli Fəaliyyət Planı ... 12

4. Mühafizə orderini nəzərdə tutan Mülki Prosessual Qanunvericiliyə dəyişikliklər ... 14

5. İnzibati Xətalar Məcəlləsinin Məişət Zorakılığına dair Qanunun pozuntusuna görə cəza nəzərdə tutan seçilmiş normaları ... 14

6. Azərbaycan Respublikası Cinayət Məcəlləsində məişət zorakılığı ayrıca cinayət əməli kimi nəzərdə tutulmur ... 15

7. Cinayət Prosessual Məcəlləyə əsasən qurban statusu və qurbanın hüquqları ... 16

8. Digər maddi hüquq normaları ... 16

III. Milli müdafiə mexanizmində mövcud qüsurlar ... 17

A. Mühafizə orderi ... 17

B. Cinayət Prosessual Məcəllədə məişət zorakılığı qurbanlarının xüsusi müdafiəsi ilə bağlı boşluqlar ... 18

IV. Məişət zorakılığı ilə bağlı cinayət işlərində müşahidə olunan problemlər ... 19

1. Cinayət işində nümayəndə ilə təmsil olunmayan qurbanın adekvat şəkildə təlimatlandırılmasının vacibliyi ... 19

2. Məhkəmə sistemi nümayəndələrinin qurbanlara qeyri-münasib dillə müraciəti ... 19

3. Prosesə xitam verilməsi məqsədilə şəxslərin barışdırılması istiqamətində qeyri-münasib dildən istifadə olunması ..... 20

V. Yekun ..... 22

VI. Tövsiyələr ..... 22

VII. Əlavə ..... 24

# Təşəkkür

ATƏT-in Bakı Ofisi (Ofis), Azərbaycan Ədliyyə Sistemində Məişət Zorakılığı adlı 2013-cü il tarixli Hesabatının hazırlanmasında əməyi keçən hər kəsə, o cümlədən Ədliyyə Nazirliyinə öz minnətdarlığını bildirir.

Ofis bu hesabatı, Məhkəmələrin Monitorinqini həyata keçirən işçi qrupun 2013-cü ilin iyul ayından dekabr ayınadək həyata keçirdiyi müşahidələr əsasında hazırlayıb. İşçi qrup yerli qanunvericiliyə və beynəlxalq standartlara əsaslanaraq toplanan məlumatları qiymətləndirib və analiz edib. İşçi qrup, xanım Patricia Faltusovanın rəhbərliyi altında, xanım Nigar Hüseynova, cənab Cabir Əliyev, cənab Bəhruz Quliyev və xanım Gülmayə Quliyevadan ibarət tərkibdə fəaliyyət göstərib. Ofis, həmçinin işçi qrupa yekun hesabatın tərtib olunmasında yardım edən xanım Carolyn Hammerin xidmətindən istifadə edib. Qanunun Aliliyi və İnsan Hüquqları şöbəsinin müdiri cənab Giovanni Galzignato, hesabatın hazırlanmasına dair bütün prosesə rəhbərlik edib.

Ofis monitorinq fəaliyyətini, ATƏT-in Demokratik İnstitutlar və İnsan Hüquqları Bürosu (DİİHB) tərəfindən hazırlanan məhkəmə monitorinqinə dair metodologiya əsasında həyata keçirib.

Sonda, Ofis Almaniya Hökumətinə bu hesabatın ərsəyə gəlməsinə şərait yaradan maliyyə dəstəyinə görə minnətdarlığını bildirir.

# Abreviaturaların siyahısı

| | |
|---|---|
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| CEDAW | Qadınlara Münasibətdə Ayrı-seçkiliyin Bütün Fromalarının Aradan Qaldırılmasına dair Konvensiya |
| AŞ | Avropa Şurası |
| CPM | Cinayət Prosessual Məcəllə |
| CM | Cinayət Məcəlləsi |
| AİHK | Avropa İnsan Hüquqları Konvensiyası |
| AİHM | Avropa İnsan Hüquqları Məhkəməsi |
| ICCPR | Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt |
| HRM | Hüquq Resurs Mərkəzləri |
| QHT | Qeyri-Hökumət Təşkilatları |
| DİİHB | Demokratik İnstitutlat və İnsan Hüquqları Bürosu |
| UDHR | Ümumdünya İnsan Hüquqları Bəyannaməsi |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |

## Qısa xülasə

Məişət zorakılığı dünyada geniş yayılmış bir hadisə olub, digər ölkələrdə olduğu kimi Azərbaycanda da qadına əhəmiyyətli dərəcədə təsir edir. Odur ki, məişət zorakılığı və qadınlara qarşı zorakılıq, qadınlara qarşı ayrı-seçkiliyin bir növüdür. Həm məişət zorakılığı, həm də məişət zorakılığına dair məhkəmə icraatı, beynəlxalq və regional sənədlərlə qorunan hüquqlarla əlaqədardır. Azərbaycan Respublikasının Konstitusiyası, bu hüquqları tətbiq olunan normativ hüquqi bazanın tərkib hissəsi kimi nəzərdə tutur. Bundan əlavə, "Məişət zorakılığının qarşısının alınması haqqında" 2010-cu il tarixli qanun və bu qanuna uyğun digər müvafiq qanunlara edilən dəyişikliklər, məişət zorakılığının qarşısının alınması və qurbanların müdafiə olunması üçün hüquqi əsasın yaranmasına şərait yaradıb. Bununla yanaşı, daha çox işlərin görülməsinə ehtiyac var. Mühafizə orderinin tətbiq olunması ilə bağlı qanunda nəzərdə tutulan prosedurlar hələ də tam şəkildə həyata keçirilmir. Cinayət Prosessual Məcəllə hələ də məişət zorakılığı qurbanlarının müdafiə olunması üçün xüsusi normalar nəzərdə tutmur. Azərbaycanda məişət zorakılığı qurbanlarının məhkəməyə çatımlılığının təmin olunmasında məhkəmələrin nə qədər böyük rol oynadığı, ATƏT-in məişət zorakılığına dair cinayət işləri üzrə müşahidəsində öz əksini tapıb.

# I. GİRİŞ

Məişət zorakılığı bütün dünyada geniş yayılmış bir hadisədir. Məişət zorakılığı həm qurbana, həm də bütöv cəmiyyətə ciddi təsir edir. Dünya Səhiyyə Təşkilatının göstəricilərinə əsasən, “ömür boyu partnyor tərəfindən tətbiq olunan fiziki zorakılıq 13-61 faiz arasında dəyişir”.[1] Lakin bir çox hallarda məişət zorakılığı ailə daxili məsələ hesab olunur. Nəticədə çoxlu sayda işlər barəsində məlumat verilmir və buna görə də bu işlərin dəqiq miqyasını müəyyən etmək çətindir.

Birləşmiş Millətlər Təşilatının (BMT) qadınlara qarşı zorakılıq üzrə Xüsusi Məruzəçisi qeyd edib ki, “məişət zorakılığı termininin neytral qaydada işlədilməsinə baxmayaraq, bu zorakılıq demək olar ki hər zaman gender əsaslı cinayət olub, kişilər tərəfindən qadınlara qarşı törədilir.”[2] Odur ki, məişət zorakılığı gender əsaslı ayrı-seçkiliyin bir növüdür.

Bu problem Hökumətlərdən ciddi diqqət və  xüsusi və hərtərəfli yanaşma tələb edir. Bu diqqət və yanaşmaya, xüsusi proqramların və qanunvericiliyin qəbul olunması; qurbanların zəruri sağlamlığının təmin olunması; sosial və hüquqi yardım və digər dəstək xidmətlərinin göstərilməsi; mütəxəssislər üçün bacarıqların artırılmasına dair təlimlərin keçirilməsi; bu problemlə bağlı əhali arasında məlumatlandırma kampaniyalarının aparılması kimi hallar daxildir.

Məhkəmə sistemi bu mexanizmdə xüsusi rol oynayır. Məhkəmə sistemi müvafiq qanunvericilik bazası tətbiq etməli, qurbanlar üçün zəruri mühafizə və müdafiə vasitələri təqdim etməli və inzibati və ya cinayət elementlərinin olduğu işlər üzrə istintaq aparmalı və qərar qəbul etməlidir.

Azərbaycan 2010-cu ildə “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun qəbul etməklə, üzərinə məişət zorakılığına qarşı mübarizə aparmaq öhdəliyi götürdü. Bu, Hökumətin beynəlxalq öhdəliklərinə uyğun hərəkət etməsinin göstəricisi və Azərbaycanda

---

[1]Dünya Səhiyyə Təşkilatı, *Qadınların Sağlamlığı və Qadınlara qarşı Məişət Zorakılığı: Xəstəliklərin Statistikası, Sağlamlıqla bağlı Durum və Qadınların Cavablarına dair İlkin Nəticələr haqqında Ölkələr üzrə Bələdçi Material* 2005, səhifə xii-xiii.

[2]BMT-nin İnsan Hüquqları Komissiyası, *Qadına qarşı zorakılıq, onun səbəb olduğu hallar və nəticələr barədə* Xüsusi Məruzəçinin hesabatı, *xanım Radhika Coomaraswamy, İnsan Hüquqları Komissiyasının Nizamnaməsinə istinadən 1995/85*, E/CN.4/1996/53, 5 fevral 1996, 22-23-cü paraqraflar.

məişət zorakılığı ilə mübarizənin başlanğıcı idi. Qanunun tam şəkildə icrası və qurbanların müdafiəsi istiqamətində yeni addımların atılması, Azərbaycanın məişət zorakılığı ilə mübarizə səyini artıracaq.

## Hesabatın məqsədi, məzmunu və metodologiyası

Bu hesabat Ofisin, Azərbaycanın məhkəmə sistemində məişət zorakılığı ilə bağlı işlər üzrə hazırladığı ilk hesabatdır. Ofis bu mövzunu Ədliyyə Nazirliyi ilə birlikdə seçib və bu mövzunun seçilməsində məqsəd, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun hansı səviyyədə icra olunmasını müəyyən etməkdə Dövlət orqanlarına kömək etmək və bu qanunun, yerli məhkəmələrdə daha geniş qanunvericilik bazası və müvafiq beynəlxalq standartlar zəminində tətbiq olunub olunmamasını qiymətləndirmək idi. Hesabat, qurbanların məhkəməyə çatımlılığının təmin olunmasında hakimlərin və prokurorların əhəmiyyətli rol oynadığını və bununla da onların, hökumətin məişət zorakılığı ilə mübarizəsinə əhəmiyyətli təsirini əks etdirir.

Ofis, bu hesabatı öz mandatı çərçivəsində hazırlayıb[3] və hesabatın hazırlanmasında məqsəd, məhkəmə sisteminin inkişaf etdirilməsi və bu yolla da ATƏT-in prinsiplərinə, ATƏT qarşısındakı öhdəliklərə və digər beynəlxalq standartlara cavab verilməsi istiqamətində hökumətə dəstək olmaqdır.

ATƏT-in məhkəmə müşahidəçiləri 2013-cü ilin iyul ayından dekabr ayınadək məişət zorakılığı ilə bağlı keçirilən işlər üzrə məhkəmə proseslərini müşahidə ediblər. Ofisin Ədliyyə Nazirliyi ilə əməkdaşlıq çərçivəsində hazırladığı anket sorğularına əsaslanan məhkəmə müşahidəçiləri, müvafiq məlumatları qeydə alıblar. Məhkəmə proseslərinin birbaşa müşahidəsi Bakı ərazisində həyata keçirilib. Əlavə məlumatlar, regional Hüquq Resurs Mərkəzləri vasiətsilə və məişət zorakılığına dair məsələlərlə məşğul olan vətəndaş cəmiyyəti nümayəndələri ilə keçirilən sorğu yolu ilə əldə olunub.

Hesabat altı fəsildən ibarətdir. Birinci fəsildəki girişin ardınca gələn 2-ci fəsil məişət zorakılığı ilə bağlı milli və beynəlxalq qanunvericilik bazasına ümumi baxışdan ibarətdir. 3-cü fəsildə bu qanunvericilik bazasının Azərbaycanın məhkəmə sistemində nə dərəcədə tətbiq

[3]Ofisin mandatı, ATƏT-in Daimi Şurasının 16 noyabr 1999-cı il tarixli 318 saylı qərarı ilə müəyyən olunub, və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ilə Azərbaycan Respublikası arasında anlaşma memorandum 19 iyun 2000-ci il tarixdə imzalanıb.

və icra olunması qiymətləndirilir. 4-cü fəsil məişət zorakılığı ilə bağlı işlərin müşahidəsi zamanı rast gəlinən halları əks etdirir və müşahidə olunan problemlərin qurbanlara təsirini təhlil edir. Hesabat yekun və bir sıra tövsiyələrlə başa çatır.

# II. Məişət zorakılığı ilə bağlı normativ aktlar

## A. Beynəlxalq

Həm məişət zorakılığı, həm də məişət zorakılığı ilə bağlı məhkəmə icraatı, beynəlxalq və yerli normativ sənədlərdə nəzərdə tutulan hüquqlarla əlaqədardır. Xüsusilə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (UDHR),[4] Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (ICCPR)[5] və İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası (AİHK),[6] hüquqlarla bağlı geniş formada müdafiəni nəzərdə tutur. Həmin hüquqlara daxildir: yaşamaq, azadlıq və təhlükəsizlik hüququ;[7] işgəncəyə, pis rəftara və insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qalmamaq hüququ;[8] qanun qarşısında bərabərlik hüququ;[9] ayrı-seçkiliyə məruz qalmamaq hüququ;[10] ədalətli məhkəmə araşdırması hüququ;[11] şəxsi həyata və ailə həyatına hörmət hüququ;[12] səmərəli hüquqi müdafiə vasitələri hüququ.[13] Baxmayaraq ki, bu normaların heç birinin mətnində məişət zorakılığına rast gəlinmir, Avropa İnsan Huquqları Məhkəməsi (AİHM) bu işlərlə bağlı geniş tərkibli president hüququ yaradıb.

AİHM-in yurispridensiyası, AİHK ilə daha geniş formada müəyyən edilmiş hüquqların qorunması naminə, Dövlətin məişət zorakılığı ilə bağlı işləri araşdırmasını nəzərdə tutan xüsusi halları özündə ehtiva edir. Məhkəmə, məişət zorakılığının qadınlara qeyri-mütənasib

---

[4]Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (UDHR), BMT Baş Assambleyası, 10 dekabr 1948, 217 A (III). Azərbaycan BMT-yə 2 mart 1992-ci ildə qəbul olunub.
[5]Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (ICCPR), BMT Baş Assambleyasının Nizamnaməsi 2200A (XXI), 21 UN GAOR Supp. (No. 16) at 52, UN Doc. A/6316 (1966); 999 UNTS 171; 6 ILM 368 (1967), 16 dekabr 1966-cı ildə qəbul olunub, 23 mart 1976-cı ildə qüvvəyə minib. Azərbaycan İCCPR-a 13 avqust 1992-ci il tarixdə qoşulub.
[6]İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası (AİHK), 87 UNTS 103, ETS 5; Avropa Şurası tərəfindən 4 noyabr 1950-ci ildə qəbul olunub, 3 sentyabr 1953-cü ildə qüvvəyə minib. AİHK Azərbaycanda 15 aprel 2002-ci ildə qüvvəyə minib.
[7]Bax 3-cü Maddə, UDHR; 6-cı Maddə, ICCPR; 2-ci və 5-ci Maddə, AİHK.
[8]Bax 5-ci Maddə, UDHR; 7-ci Maddə, ICCPR; 3-cü Maddə, AİHK.
[9]Bax 7-ci Maddə, UDHR və 26-cı Maddə, ICCPR.
[10]Bax 7-ci Maddə, UDHR; 26-cı Maddə, ICCPR; 14-cü Maddə, AİHK.
[11]Bax 10-cu Maddə, UDHR; 14-cü Maddə, ICCPR; 6-cı Maddə, AİHK.
[12]Bax 12-ci Maddə, UDHR; 17-ci Maddə, ICCPR; 8-ci Maddə, AİHK.
[13]Bax 8-ci Maddə, UDHR; 2ci Maddənin 3-cü bəndi, ICCPR; 13-cü Maddə, AİHK.

şəkildə təsir etdiyini tanıyaraq, CEDAW-nun 1-ci maddəsində[14] də nəzərdə tutulduğu qaydada, qadına qarşı zorakılığın ayrı-seçkiliyin bir növü olması ilə bağlı CEDAW Komitəsinin mövqeyini qəbul etdi. Özünün president müəyyən edən *Opuz Türkiyəyə qarşı* işində, İnsan Hüquqları üzrə Birləşmiş Millətlər Komissiyasına istinad edən Məhkəmə bildirdi: "[. . .] qadına qarşı zorakılığın bütün formaları qadınlara qarşı hüquqi və faktiki ayrı-seçkilik kontekstində və cəmiyyətdə qadınların aşağı statuslu şəxslər hesab edilməsi kontekstində baş verir və qadınların hüquqi müdafiə vasitələri üçün dövlətə müraciət edərkən çox zaman maneələrlə üzləşməsi bu zorakılığı daha da gücləndirir."[15] Sonda, Məhkəmə ərizəçinin 2-ci və 3-cü Maddələrlə birlikdə, 14-cü Maddədə nəzərdə tutulan ayrı-seçkiliyə məruz qalmamaq hüququnun pozulduğunu tanıdı və bildirdi ki, Dövlətin, qadınları məişət zorakılığından qorumaması, "[. . .] hətta bu qorumama hərəkəti məqsədli şəkildə baş verməedikdə belə, qadınların qanunla bərabər şəkildə qorunmaq hüququnu pozur."[16]

AİHM-in yurisprudensiyası həm də Dövlətin üzrəinə, şəxsləri digər şəxslərin zorakılıq və təhqir hərəkətlərindən qorumaq öhdəliyi kimi pozitiv öhdəlik qoyur. Bu pozitiv öhdəlik həm də AİHK-in 2-ci və 3-cü Maddələrində, eləcə də 8-ci Maddədə və ya 3-cü Maddə ilə birlikdə 8-ci Maddədə nəzərdə tutulan hüquqlarla bağlı da tətbiq olunur.[17] Bu hal Dövlətlərdən tələb edir ki, "[. . .] ayrı-ayrı şəxslərin zorakılıq xarakterli əməlinin qarşısını almaq üçün adekvat qanunvericilik bazası yaratmalı və bu qanunvericiliyi tətbiq etməlidir."[18] Dövlətin üzərinə öz yurispuridensiyasında olan şəxslərin həyatını və ləyaqətini qorumaq üçün müvafiq tədbirlər görmək kimi pozitiv öhdəliklər qoyulur və bu öhdəliklər tələb edir ki, "[. . .] dövlət şəxsə qarşı törədilə biləcək cinayət əməlinin qarşını almaq üçün cinayət hüququ üzrə normalar müəyyən etsin və həmin normaların pozuntusuna qarşı fəaliyyət göstərən çəkindirici, nəzarətedici və cəza xarakterli hüquq mühafizə sistemi təsis etsin."[19] Müəyyən hallarda,

---

[14]Qadınlara Münasibətdə Ayrı-seçkiliyin Bütün Fromalarının Aradan Qaldırılmasına dair Konvensiyanın (CEDAW) 1-ci Maddəsi. Bax CEDAW, GA res. 34/180, 34 UN GAOR Supp. (No. 46) at 193, UN Doc. A/34/46; 1249 UNTS 13; 19 ILM 33 (1980). Bax həmçinin, Qadınlara Münasibətdə Ayrı-seçkiliyin Bütün Fromalarının Aradan Qaldırılmasına dair Komitə, Ümumi Tövsiyələr № 19 (llthsession, 1992), UN Doc. A/47/38, 1-ci paraqraf."[. . .] gender əsaslı azorakılıq ayrı-seçkiliyin bir növü olub, qadınların kişilərlə bərabər əsaslarla hüquq və azadlıqlardan istifadə imkanına mane olur."

[15] Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyasının [2006—cı ildən Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası adlanır] orijinal mətni 2003/45 saylı Nizamnamə, "Qadınlara qarşı zorakılığın aradan qaldırılması", 8-ci paraqraf. AİHM-in 9 iyun 2009-cu il tarixli *Opuz Türkiyəyə qarşı* qərarın 188-ci paraqrafı.

[16]*Opuz Türkiyəyə qarşı, supra*, 191-ci paraqraf.

[17]*Bevacqua və S Bolqarıstana qarşı*, AİHM-in 12 iyun 2008-ci il tarixli qərarın 65-ci paraqrafı.

[18]*Bevacqua və S Bolqarıstana qarşı, supra*, 65-ci paraqraf.

[19]*Kontrová Slovakiyaya qarşı*, AİHM 31 may 2007-ci il tarixli qərar, 49-cu paraqraf, həmçinin istinad edir *L.C.B. Birləşmiş Krallığa qarşı*, 9 iyun 1998-ci il tarixli qərar, Qərarlarla bağlı Hesabatlar 1998-III, p. 1403, § 36 və *Osman Birləşmiş Krallığa qarşı*, 28 oktyabr 1998-ci il tarixli qərar, Hesabatlar 1998-VIII, p. 3159, § 115.

Dövlətin, həm də “şəxsi, ona qarşı digər şəxs tərəfindən törədiləcək cinayət təhlükəsindən müdafiə etmək üçün, çəkindirici tədbirlər görmək” kimi pozitiv öhdəlikləri ola bilər.”[20] Bu səbəbdən də, Dövlətin cinayət hüququ sistemi məişət zorakılığı törətmiş şəxsin “qanunsuz hərəkətlərinin qarşısını almaq üçün adekvat çəkindirici mexanizmə malik deyilsə”, Dövlət Konvensiyanın 2-ci və 3-cü Maddələrini poza bilər.[21]

Çoxsaylı başqa beynəlxalq “yumşaq hüquq” sənədləri məişət zorakılığı, gender bərabərsizliyi və insan hüquqları ilə bağlı Dövlətlərin öhdəliklərini müəyyən edib. Bu istiqamətdə ən son sənədlərdən biri, Avropa Şurasının, İstanbul Konvensiyası kimi də tanınan “Qadına qarşı zorakılıq və məişət zorakılığının qarşının alınması haqqında Konvensiya”dır. İstanbul Konvensiyası dünyada qadını hər növ zorakılıqdan qoruyan və eləcə də qadına qarşı zorakılığı və məişət zorakılığını məhkəmə qaydasında araşdıran və aradan qarldıran, məcburi öhdəlik yaradan ilk müfəssəl hüquqi sənəddir. Konvensiya, həmçinin yerli səviyyədə icrasının beynəlxalq qaydada müşahidə olunması mexanizmini də nəzərdə tutur.[22] Konvensiya, səkkizi üzv dövlət olmaqla, on dövlət tərəfindən ratifikasiya olunduqdan sonra qüvvəyə minəcək. Bu günədək səkkiz ölkə sənədi ratifikasiya edib, 24-ü isə imzalayıb, amma hələ ratifikasiya etməyib.[23] Azərbaycan Konvensiyanı nə imzalayıb, nə də ratifikasiya edib.

Baxmayaraq ki, İstanbul Konvensiyası Azərbaycanda hüquqi qüvvəsi olmayan bir sənəddir, Azərbaycan yuxarıda qeyd olunan sənədlərə qoşulub və buna görə də həmin sənədlər Azərbaycanda tətbiq olunandır. Azərbaycan Respublikası Konstitusiyasına əsasən, “Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq sənədlər, Azərbaycan qanunvericiliyinin tərkib hissəsidir.”[24] Bu müqavilələrdə nəzərdə tutulan hüquqlar yerli qanunvericilikdə nəzərdə tutulan hüquqların əhatəsini genişləndirir və onları tamamlayır. Konstitusiyada

---

Bax həmçinin *Valiulienė Litvaya qarşı*, AİHM-in 26 mart 2013-cü il tarixli qərarı, 75-ci paraqraf, burda məhkəmə 2-ci Maddənin tələblərini, 3-cü Maddədə nəzərdə tutulan, digər şəxs tərəfindən törədilən pis-rəftardan qorumaya qədər genişləndirdi. Məhkəmə həmçinin qeyd etdi ki, “3-cü Maddə altında digər şəxslər tərəfindən törədilən əmələ görə Dövlət birbaşa məsuliyyət daşımasa belə, Konvensiyanın 1-ci Maddəsi çərçivəsində Dövlətin məsuliyyəti yarana bilər.” *Id.* 74-cü paraqraf. Bax həmçinin, *Eremia Moldova Respublikasına qarşı*, AİHM 28 may 2013-cü il tarixli qərar, 49-cü paragraf.

[20] *Kontrová Slovakiyaya qarşı*, *supra*, 49-cu paraqraf.

[21] *Opuz Türkiyəyə qarşı*, *supra*, 199-cu paraqraf.

[22] Bax: press reliz 312(2011), “Avropa Şurası qadına qarşı zorakılığın qarşısının alınması və onunla mübarizə aparılması haqqında yeni konvensiya qəbul edir”, 8 aprel 2011, son dəfə 8 dekabr 2013-cü ildə aşağıdakı səhifədə baxılmışdır: https://wcd.coe.int/ViewDoc.jsp?id=1772297.

[23] Müqavilə Bürosu, Avropa Şurası, son dəfə 8 dekabr 2013-cü il tarixdə aşağıdakı səhifədə baxılmışdır: http://conventions.coe.int.

[24] Maddə 148, II; Azərbaycan Respublikasının Konstitusiyası, axırıncı dəfə 8 dekabr 2013-cü il tarixdə aşağıdakı səhifədə baxılıb: http://azerbaijan.az/portal/General/Constitution/doc/constitution_e.pdf.

nəzərdə tutulan hüquqlar və azadlıqlar “[. . .] Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun şəkildə həyata keçirilməlidir.”[25] Bu hüquqlar və azadlıqlar yalnız *inter alia* “[. . . Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri çərçivəsində” məhdudlaşdırıla bilər.[26] Hətta müəyyən hallarda beynəlxalq normalar yerli qanunvericilikdən üstün hüquqi qüvvəyə malik ola bilər.[27]

## B. Milli

### 1. Konstitusiya

Yuxarıda da qeyd olunduğu kimi, Azərbaycan Respublikasının 27 Noyabr 1995-ci il tarixli Konstitusiyası, məişət zorakılığı kontekstinə uyğun bir sıra hüquq normaları nəzərdə tutur. Xüsusilə 17-ci Maddə ailəni, “cəmiyyətin Dövlət tərəfindən xüsusi müdafiə olunan əsas elementi” kimi xarakterizə edir.”[28] Bu maddə həmçinin, valideyinlərin üzərinə “uşaqlarının və onların təhsilinin qayğısına qalmaq”, dövlətin üzərinə isə “bu öhdəliyin yerinə yetirilməsinə nəzarət etmək” öhdəliyi qoyur.[29] Konstitusiyasının 3-cü Bölməsi, məişət zorakılığına dair işlərə və həmçinin məişət zorakılığına dair məhkəmə icraatına tətbiq oluna bilən bütün digər hüquqları da nəzərdə tutur. Bu hüquqlara, *inter alia*, aiddir: bərabərlik hüququ (25), yaşamaq hüququ, sərbəst hərəkət etmək azadlığı, mülkiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ (31, II hissənin mətninə istinad edilib), şəxsi həyat və ailə həyatı ilə bağlı şəxsi toxunulmazlıq və məxfilik hüququ (32), mənzil toxunulmazlığı hüququ (33), nikah hüququ (34), sosial müdafiə hüququ (38), mənzil hüququ (43), şərəf və ləyaqətin müdafiəsi hüququ (46), hüquq və azadlıqların məhkəmə təminatı (60), hüquqi yardım almaq hüququ (61), məhkəməyə təkrar müraciət hüququ (65) və ailə üzvlərinin əleyhinə ifadə verilməyə məcbur edilməmək hüququ (66).

### 2. Məişət zorakılığına dair qanun

Azərbaycan Respublikasının 22 iyul 2010-cu il tarixli “Məişət zorakılığının qarşısının alınması haqqında” qanunu (bundan sonra, “məişət zorakılığı haqqında qanun”) məişət zorakılığının və “onun neqativ hüquqi, tibbi və sosial nəticələrinin” qarşısının alınmasını, qurbanları “hüquqi yardım və sosial müdafiə” ilə təmin etməyi və “məişət zorakılığına səbəb

[25] Madd 12, II; *id*.
[26] Maddə 71, III; *id*.
[27] Bax: Maddə 151, *id*.: “Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normative hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, hmin beynəlxalq müqavilələr tətbiq edilir.”
[28] Bax: 17, I; *id*.
[29] 17,II; *id*.

olan şəraitin" aradan qaldırılmasını özündə ehtiva edir.[30] Məişət zorakılığına dair qanuna əsasən, "məişət zorakılığı, yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui istifadə etməklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması" kimi müəyyən olunur.[31] 1-ci Maddə "fiziki məişət zorakılığı", "psixoloji məişət zorakılığı" və "seksual məişət zorakılığı" hallarını müəyyən edir və onları bir-birindən fərqləndirir. Bu Maddə həmçinin digər əsas anlayışları da müəyyən edir.

Qanuna əsasən, məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət, inzibati və ya mülki qaydada və ya cinayətin baş verməsi və ya hazırlanmasından, eləcə də şikayətin *corpus delicti*[32] halı ilə bağlı olmasından asılı olaraq icra hakimiyyətləri tərəfindən baxıla bilər. Əgər şikayət törədilmiş və ya planlaşdırılan cinayət haqqındadırsa və ya şikayətdə *corpus delicti* halları varsa, o zaman işə cinayət qaydasında baxılmalıdır. Əks halda şikayət "müvafiq icra hakimiyyəti orqanı" tərəfindən araşdırılmalıdır.

## 3. Prezident Fərmanları, Nazirlər Kabinetinin Qərarları və İnsan Hüquqlarının Müdafiəsi haqqında Milli Fəaliyyət Planı

1 oktyabr 2010-cu il tarixdə, Azərbaycan Respublikasının Prezidenti məişət zorakılığı haqqında qanunun icrasını nəzərdə tutan Fərman imzaladı.[33] Bu Fərmanla, Nazirlər Kabinetinə dörd ay ərzində Qanunun icrası ilə bağlı geniş miqyaslı tədbirlər görmək, həmçinin daha ümumi dili olan məişət zorakılığı haqqında qanunun tam şəkildə icra oluna bilməsi üçün, müvafiq normativ aktlara dair zəruri təkliflər hazırlamaq barədə tapşırıq verildi. Fərman, həm də bu qanunun ilkin addım olmasını qəbul edərək, qanunun icrasına yol açan zəruri tədbirlərin görülməsi barədə Nazirlər Kabinetinə tapşırıq verdi. Bu tapşırıqlara, cinayət tərkibi olmayan şikayətlərə baxılması qaydalarının müəyyən edilməsi (1.3), zorakılıq törətmiş şəxsin qeydiyyata alınması və məlumat bankı hazırlanması (1.4 və 1.5), QHT yardım mərkəzlərinin fəaliyyət qaydasının hazırlanması (1.6), təkrar-təkrar qeyd olunan, lakin dəqiq müəyyən olunmayan "müvafiq icra hakimiyyəti orqanları" barədə təkliflər hazırlanması (1.7) və öz səlahiyyətləri daxilində məişət zorakılığına dair qanundan irəli gələn digər məsələlərin

[30] Bax: Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu (Məişət zorakılığı haqqında qanun), 22 iyun 2010, preambulanın mətni.
[31] Maddə 1, Məişət zorakılığı haqqında qanun, *supra*.
[32] Bax, Maddə. 5, Məişət zorakılığı haqqında qanun, *supra*.
[33] "Məişət Zorakılığının Qarşısının Alınması haqqında" Azərbaycan Respublikası Qanununun icrası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 1 oktyabr 2010.

həll edilməsi (1.9) daxildir. 24 noyabr 2011-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti "Məişət Zorakılığı Qanununun tətbiqi ilə əlaqədar ikinci fərman verdi.[34] Fərman Məişət Zorakılığı Qanununda təkrarlanan, lakin izahı verilməyən "müqafiq icra hakimiyyəti orqanı"nı "yerli icra hakimiyyəti orqanı" kimi müəyyən etmişdir.

Prezidentin Fərmanına cavab olaraq, Nazirlər Kabineti bir sıra qərarlar qəbul etdi. Bura daxildir: "Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması Qaydası" (19 dekbar 2011); "Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları" (19 dekabr 2911); "Məişət zorakılığı barədə şikayətlərdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası" (24 fevral 2012); və "Məişət zorakılığı qurbanlarına yardım mərkəzlərinin fəaliyyət Qaydası" və "Məişət zorakılığı qurbanlarına yardım etmək üçün yaradılan qeyri-ictimai yardım mərkəzlərinin akreditasiya Qaydası"nın təsdiq olunması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı" (25 aprel 2012). Bu sonuncu qərar iki hissədən ibarətdir: "Məişət zorakılığı qurbanlarına yardım mərkəzlərinin fəaliyyət Qaydası" və "Məişət zorakılığı qurbanlarına yardım etmək üçün yaradılan qeyri-ictimai yardım mərkəzlərinin akreditasiya Qaydası". Baxmayaraq ki, aşağıda da müzakirə olunacaq çoxsaylı boşluqlar hələ də mövcuddur, bu qərarlar mövcud mexanizmin yaxşılaşdırılması istiqamətində səylərin davam etdirilməsini və bu istiqamətdə xoş məramın olmasını göstərir və məişət zorakılığına dair qanunun ehtiva etdiyi müdafiə müxanizminin müəyyən hissələrini konkretləşdirir.

Məişət zorakılığı məsələsi həmçinin "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı"na daxil edilib. Milli Fəaliyyət Planı "mütəmadi" şəkildə görülməli olan tədbirlərin siyahısını müəyyən edir: "məişət zorakılığı da daxil olmaqla, qadına qarşı zorakılıqla mübarizəni gücləndirmək, müfaviq hüquqi yardım vasitələrilə təminetmə, zəruri kompensasiyalar, tibbi və psixoloji yardım və bu cür zorakılığın qurbanı olmuş şəxslərin reabilitasiyası", həmçinin, "bu sahədə geniş ictimai

[34] "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il tarixli Fərmanı

məlumatlandırmanın təşkili”. Bu tədbirlər Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsi və Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilməlidir.

### 4. Mühafizə orderini nəzərdə tutan Mülki Prosessual Qanunvericiliyə dəyişikliklər

24 iyun 2011-ci il tarixdə, “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu” qəbul olundu.[35] Bu qanun, məişət zorakılığı qurbanları üçün digər xüsusi icraatla bağlı məsələlərdə, hansı halda uzun müddətli mühafizə orderinin təyin olunmasına ehtiyac olduğunu şərtləndirir. Bu qanunla Mülki Prosessual Məcəlləyə, “Məişət zorakılığından əziyyət çəkən şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işlər üzrə icraat” adlı 40-1 saylı yeni Fəsil əlavə edildi. Bu dəyişiklikdən sonra Mülki Prosessual Məcəllənin 355.1.1-ci Maddəsində qeyd olunur:

*Məişət zorakılğı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa və qısamüddətli mühafizə orderinin tələblərinə əməl etmədikdə, zərərçəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir.*

Bundan başqa, bu Maddə həmçinin, şikayət məhkəməyə daxil olduqdan sonra ona üç gün ərzində qapalı məhkəmə iclasında baxılmasını şərtləndirir.[36]

### 5. İnzibati Xətalar Məcəlləsinin Məişət Zorakılığına dair Qanunun pozuntusuna görə cəza nəzərdə tutan seçilmiş normaları

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (İnzibati Xətalar Məcəlləsi), məişət zorakılığı haqqında qanunla müəyyən edildiyi kimi, “məişət zorakılığı” ilə bağlı əməlləri cəzalandıran iki əsas norma nəzərdə tutur. Bura, 38-1-ci Maddədə nəzərdə tutulan döymə əməlinə görə cəzalandırma[37] və 38-2-ci Maddədə nəzərdə tutulan, məişət zorakılığına dair qanunla qadağan edilən müvafiq əməlləri törətməyə görə cəzalandırma daxildir. Bura aiddir: “məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yeni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına

---

[35] Bax: Mülki Prosessual Məcəlləyə dəyişikliklər edilməsi haqqında Azərbycan Respublikasının Qanunu, 24 iyun 2011.
[36] Maddə 355.3 Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi.
[37] Maddə 38.1, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi.

və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlər"; "məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə (qısnama) və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlər."[38]

## 6. Azərbaycan Respublikası Cinayət Məcəlləsində məişət zorakılığı ayrıca cinayət əməli kimi nəzərdə tutulmur

Azərbaycan Respublikası Cinayət Məcəlləsində məişət zorakılığı ayrıca cinayət əməli kimi və ya digər cinayət əməlində ağırlaşdırıcı hal kimi nəzərdə tutulmur. Daha dəqiq desək, Qanun, məişət zorakılığına yol vermiş şəxslərin Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayətlərə uyğun cəzalandırılmasını nəzərdə tutur. Əlbəttə ki, əməl, kontekstindən asılı olaraq, müxtəlif növ cinayət əməli katerqoriyasına aid edilə bilər. Nəzərə alsaq ki, məişət zorakılığı haqqında qanun "məişət zorakılığını" qismən "qəsdən fiziki və mənəvi zərər vurma" kimi müəyyən edir, məişət zorakılığı ilə əlaqədar əksər cinayətlər Cinaəyt Məcəlləsinin VIII Bölməsinin (şəxsiyyət əleyhinə olan cinayətlər) altına düşür.

Məişət zorakılığına dair qanunun tərtibatı zamanı, ATƏT/DİİHB, qanun layihəsini hazırlayan işçi qrupa təqdim etdiyi rəydə, məişət zorakılığı anlayışına həm də məişət zorakılığı xarakterli cinayətləri müəyyən edən əməllərin siyahısını daxil etməyin əhəmiyyətini vurğulamışdı: "Məişət zorakılığına yol verən əksər şəxslər tərəfindən törədilən cinayət əməlinin bu cür dəqiqləşdirilməsi, tez-tez baş verən zorakılıq cinayətlərinin, qorxu yaradan və ya zərər vuran əməllərin əhatə dairəsini müəyyən etməyə kömək edərdi və daha da önəmli, həmin cinayətləri əks etdirən qanunu tətbiq edən qurumlara, üçüncü şəxslərə aid bu cinayətlərin evdə və/və ya ailədə yaşayan şəxslər arasında və ya oxşar münasibətdə olan şəxslər arasında baş verdiyini daha aydın çatdırardı."[39] Bundan əlavə, ATƏT, Avropa Şurası Nazirlər Kabinetinin "ailə daxilində baş verən zorakılığın bütün formalarının cinayət əməli kimi tövsif olunması" ilə bağlı tövsiyəsini də bir daha xatırladır.[40]

---

[38]Maddə 38.2, *id.*

[39] DİİHB Məişət Zorakılığı haqqında Azərbaycan Respublikasının qanun layihəsi, 15-ci paraqraf. "Məişət və ailədaxili zorakılıq haqqında model məcəllə"yı istinad, Konrad Hilton Fondunun Məsləhətçi Komitəsinin ailədaxili zorakılıq layihəsinin model Məcəlləsi, Azyaşlılaq və Ailə Məhkəməsinin hakimlərindən ibarət Milli Şura, Kaliforniya. 1994, 3-cü səhifə.

[40]"Qadınların zorakılıqdan qorunması" haqqında Avropa Şurası Nazirlər Komitəsinin Rec (2002)5 Tövsiyəsinə Əlavə, 55-ci paraqraf.

## 7. Cinayət Prosessual Məcəlləyə əsasən qurban statusu və qurbanın hüquqları

Məişət zorakılığı ilə bağlı cinayətlərin istintaqı, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinə (bundan sonra, Cinayət Prosessual Məcəllə) uyğun aparılmalıdır. Lakin, Cinayət Prosessual Məcəllə məişət zorakılığı ilə bağlı cinayətlər üçün hər hansı xüsusi prosedur nəzərdə tutmur.[41] Buna görə də "məişət zorakılığı" xüsusi prosessual tədbirlər üçün müstəqil meyar hesab olunmur.

## 8. Digər maddi hüquq normaları

Azərbaycan Respublikasının bir sıra digər maddi hüquq normaları da məişət zorakılığı ilə bağlı müəyyən hallara tətbiq oluna bilər.

- **Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Qanun**: Bu qanunun 3-cü Maddəsinin 2-ci bəndinə əsasən, məişət zorakılığının qurbanları "müdafiə olunan şəxslər" kimi təsnifatlandırıla bilər. Bu halda, onlara qanunun 7-ci maddəsində nəzərdə tutulan təhlükəsizlik tədbirləri tətbiq olunacaq.[42]
- **Ailə Məcəlləsi**: 64.0.4-cü Maddəyə əsasən, uşaqlarına qarşı məişət zorakılığı ilə bağlı hərəkətlər törədən valideynlər, valideynlik hüququndan məhrum edilə bilərlər.[43]
- **Gender Bərabərliyi haqqında Qanun**: Bu qanun, *inter alia*, gender əsaslı ayrı-seçkiliyin və seksual qısnamanın anlayışını müəyyən edir və onu qadağan edir.[44] Bu qanun həmçinin Dövlətin üzərinə gender bərabərliyini təmin etmək öhdəliyi qoyur.[45]

İcra haqqında Qanun, Sosial Xidmət haqqında Qanun və İnformatiya Əldə Etmək haqqında Qanun da daxil olmaqla digər qanunlar da mövcuddur ki, onlar məhkəmələrin deyil, fərqli Dövlət orqanlarının və ictimai qurumların üzərinə müvafiq vəzifələr qoyur. Bununla yanaşı, Əhalinin Sağlamlığının Qorunması haqqında Qanunun 17.1-ci Maddəsi məişət zorakılığı qurbanlarının, dövlət səhiyyə sisteminin müəssisələrində ixtisaslaşdırılmış pulsuz tibbi yardımla təmin olunmasını nəzərdə tutur.[46]

---

[41] Bununla bağlı yeganə istisna, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 37.5.4-cü Maddəsi ola bilər. Həmin maddə ictimai-xüsusi ittihamın, *inter alia*, "cinayət əməlinin təhdidlə və ya şəxs tərəfindən, onun tabeliyində olan şəxsə qarşı törədildiyi hallarda", prokuror tərəfindən aparılmasına icazə verir.

[42] Cinayət prosesində iştirak edən şəxslətin dövlət müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu, 11 dekabr 1998.

[43] Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Maddə 64.0.4.

[44] Bax: 2, 3 və 4-cü maddələr, Gender Bərabərliyi haqqında Azərbaycan Respublikasının Qanunu, 10 oktyabr 2006.

[45] Maddə 6, *id*.

[46] Bax: Əhalinin sağlamlığının qorunması haqqında Qanun, 26 iyun 1997, Əhalinin sağlamlığının qorunması haqqında qanuna dəyişikliklər haqqında qanunla dəyişdirilib, 24 iyun 2011.

# III. Milli müdafiə mexanizmində mövcud qüsurlar

## A. Mühafizə orderi

Məişət zorakılığı haqqında qanun həm qısamüddətli, həm də uzunmüddətli mühafizə orderini nəzərdə tutur.[47] Adı çəkilən Qanuna əsasən, "əgər zorakılıq törədən şəxsin əməli cinayət məsuliyyəti yaratmırsa və sadəcə məişət zorakılığı qurbanının hüquqlarını və qanuni maraqlarını pozursa", o zaman "müvafiq icra hakimiyyət orqanı" tərəfindən qısa-müddətli mühafizə orderi tətbiq oluna bilər.[48] Odur ki, nəzəri olaraq, əgər məişət zorakılığı əməli açıq-aşkar cinayət xarakterli deyilsə belə, qurban mühafizə oluna bilər. Bu hesabatın əvvəlində qeyd olunan Prezident Fərmanına əsasən, Nazirlər Kabineti "müvafiq icra hakimiyyəti orqanı" anlayışına hansı orqanların daxil olması ilə bağlı təkliflər təqdim etməli idilər. Lakin bu günədək bu baş verməyib. Məhz bu səbəbdən belə görünür ki, bu günədək heç bir qısamüddətli mühafizə orderi təqdim olunmayıb və/və ya hüquqi baxımdan belə bir order təqdim oluna bilməzdi.

Əvvəl də bu Hesabatda Bölmə II.B.3-də qeyd edildiyi kimi, Məişət zorakılığı haqqında qanununun tətbiqinə dair Prezidentin ikinci Fərmanı "müqafiq icra hakimiyyət orqanları"nı "yerli icra hakimiyyəti orqanları" kimi müəyyən etmişdir. Bu baxımdan, yerli icra hakimiyyəti orqanları qanunla müəyyən edildiyi kimi, məişət zorakılığı işləri üzrə qısa müddətli mühafizə orderi vermək səlahiyyətinə malik orqanlardır.

Uzunmüddətli mühafizə orderinin verilməsi qısamüddətli mühafizə orderinin verilməsindən asılıdır. Məişət zorakılığının qurbanı, uzunmüddətli mühafizə orderi üçün məhkəməyə yalnız o vaxt müraciət edə bilər ki, zorakılığı törətmiş şəxs qısamüddətli mühafizə orderinin tələblərini yerinə yetirməsin.[49] Buna görə də, əgər qanunda nəzərdə tutulan qısamüddətli mühafizə orderi verilməyibsə, bu zaman məhkəməyə edilən müraciət əsaslandırılmamış sayılacaq ki, bunun nəticəsində də qurban bu mühafizə üsuluna çatımlı olmayacaq.

Məhkəmə monitorinqini həyata keçirən işçi qrupu yerli icra hakimiyyəti orqanı tərəfindən qısa müddətli mühafizə orderi verilməsinə və qısa müddətli mühafizə orderin tələblərinin pozulması əsasında uzun müddətli order barədə qərar çıxarılmış hər hansı iş barədə məlumat

[47] Bax: Maddə 10, Məişət zorakılığı haqqında qanun, *supra*.
[48] Bax: Maddə 11.1, Məişət zorakılığına qarşı qanun, *supra*.
[49] Bax: Maddə 12.1, Məişət zorakılığı haqqında qanun, *supra*.

əldə edə bilməmişdir. Lakin, məhkəmə monitorinqini həyata keçirən işçi qrupun, məişət zorakılığı qurbanlarına yardım edən QHT-dən aldığı məlumata görə, bir işdə yalnız polis tərəfindən verilən xəbərdarlığın pozulması nəticəsində uzunmüddətli mühafizə orderi əldə olunub və həmin təşkilat uzunmüddətli mühafizə orderi əldə etməkdə yardım edib.[50] Mühafizə orderinin verilməsi istiqamətində QHT-nin də, məhkəmənin də təşəbbüsləri təqdirə layiqdir.Bununla belə, yerli icra hakimiyyəti orqanına qısa müddətli mühafizə orderi vermək səlahiyyəti verən mövcud qanunulvericiliyin tam surətdə tətbiq edilməsi məişət zorakılığı qurbanlarına qısamüddətli və uzunmüddətli mühafizə orderini aydın və şəffaf şəkildə əldə etmək imkanı verər.

## B. Cinayət Prosessual Məcəllədə məişət zorakılığı qurbanlarının xüsusi müdafiəsi ilə bağlı boşluqlar

Məişət zorakılığı haqqında qanunun 5-ci Maddəsinin 1-ci bəndinə əsasən, məişət zorakılığı ilə bağlı şikayət, baş vermiş və ya hazırlanan cinayət hadisəsi ilə əlaqədardırsa, o zaman həmin şikayətə "cinayət prosessual qanunvericilikdə müəyyən olunmuş qaydada" baxılır.[51] Lakin, Cinayət Prosessual Məcəllə, məişət zorakılığı qurbanlarının xüsusi vəziyyəti, ehtiyacları və ya hüquqları barədə hər hansı norma nəzərədə tutmur. Məişət zorakılığı haqqında qanun, cinayət prosesini həyata keçirən orqanlar üzərinə müxtəlif öhdəliklər qoyur, lakin bu orqanlardan hansının sadalanan vəzifələrdən hansını daşıdığını dəqiqləşdirmir. Bununla bağlı maddə, "Məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxıldıqda, cinayət təqibi ilə yanaşı görülməli tədbirlər" adlanır.[52] Vəzifələrin müəyyən edilməsilə bağlı bu normanın anlaşılmaz dili və Cinayət Prosessual Məcəllədə məişət zorakılığı ilə bağlı xüsusi normaların olmaması məişət zorakılığı qurbanlarının cinayət işilə bağlı hüquqlarına zərər vurur.

Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Qanunun II.B.8-ci Bölməsində sadalanan normalar da hakimlər tərəfindən istifadə oluna bilər.[53] Lakin həmin hüquq da birbaşa olaraq məişət zorakılığı qurbanlarına istinad etmir.

---

[50]ATƏT-in Bakı Ofisinin "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi ilə müsahibəsi, 6/12/13.
[51] Bax: Maddə 5.1, Məişət zorakılığı haqqında qanun, *supra*.
[52]Maddə 7.0, Məişət zorakılığı haqqında qanun, *supra*.
[53] Bax: Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında qanun, Maddə 3(2) və Maddə 7, *supra*.

# IV. Məişət zorakılığı ilə bağlı cinayət işlərində müşahidə olunan problemlər

### 1. Cinayət işində nümayəndə ilə təmsil olunmayan qurbanın adekvat şəkildə təlimatlandırılmasının vacibliyi

Cinayət Prosessual Məcəlləyə əsasən, qurban, cinayət prosesinin iştirakçılarından biridir.[54] Prosesin iştirakçısı olaraq qurbanların müxtəlif prosessual hüquqları,[55] eləcə də vəzifələri[56] var və bu hüquq və vəzifələri onlara izah etmək hakimlərin vəzifəsidir. Məhkəmə müşahidəçiləri məişət zorakılığı ilə bağlı məhkəmə proseslərində qurbanların əsasən nümayəndəsiz iştirak etdiklərini görmüşlər. Belə hallarda, hakimin onlara hüquqlarını izah etməsi xüsusilə vacibdir.

Məhkəmə müşahidəçilərinin hesabatına görə, bir çox işlərdə hakimlər hüquqları sadalamayıblar, bəzi işlərdə isə hüquqları heç bir izah vermədən sadalayıblar. Qurbanlara, xüsusilə nümayəndə ilə təmsil olunmayanlara, hüquqlarının tam və anlaşılan formada izah edilməməsi, onların qanunla nəzərdə tutulan hüquqları ilə tanış olmaq hüquqlarını pozur.

### 2. Məhkəmə sistemi nümayəndələrinin qurbanlara qeyri-münasib dillə müraciəti

Konstitusiyada da müəyyən olunduğu kimi,[57] məhkəmə hakimiyyəti, prosesi həyata keçirərkən bütün proses iştirakçılarının fundamental hüquqlarına, eləcə də şəxsi ləyaqətinə və bərabərliyinə[58] hörmətlə yanaşmalıdır.

Bu tələbə baxmayaraq, müşahidəçilərin izlədikləri bəzi işlərdə məhkəmə sistemi nümayəndələri heç də hər zaman qurbanlara hörmətlə yanaşmırlar və nəticədə, qanunla üzərlərinə qoyulmuş bu öhdəliyi yerinə yetirmirlər.

Məişət zorakılığı ilə bağlı cinayət proseslərinin müşahidəsi zamanı məhkəmə müşahidəçiləri aşağıdakı halları müşahidə ediblər:

- Prokuror, qurbana qarşı məişət zorakılığına haqq qazandıran atalar sözü səsləndirir;

---

[54] Bax: Maddə 7.0.18, Cinayət Prosessual Məcəllə, *supra*.
[55] Bax: Maddə 87.6, *id.*, həmçinin Maddə 189, *id.*.
[56] Bax: Maddə 87.7, *id.*.
[57] Konstitusiya, Maddə 46 və 2, *supra*.
[58] Cinayət Prosessual Məcəllə, Maddə 12, *supra* və Məişət zorakılığı haqqında qanun, Maddə 3.0.2, *supra*.

- Hakim qurbana deyir ki, onun məhkəmə zalındakı davranışı və sözləri göstrir ki, “o özü də elə əri qədər günahkardır”; və
- Hakim qurbanı inandırmağa çalışır ki, işə qapalı məhkəmə iclasında baxılmalıdır və bunu onunla əsaslandırır ki, qurban qadın olduğundan, onunla bağlı araşdırılacaq bəzi faktlar onun üçün “xəcalət vericidir”.

Təcrübədə az rast gəlinsə də, ayrıseçkilik xarakterli qeyri-münasib dildən istifadə olunması və gender əsaslı stereotiplərin faktlara təsir etməsi, qadını daha ciddi şəkildə qurbana çevirə bilər. Məhkəmə sisteminin təmsilçiləri, xüsusilə məhkəmələr, qanunların və vətəndaşların həmin qanunlardan doğan hüquqlarının ən göz önündə olan və həqiqi təminatçılarıdırlar. Odur ki, konstitusion şəkildə təminat verilən ləyaqətə və bərabərliyə hörmət prinsipi, həm də məhkəmə sistemi təmsilçilərinin qurbanlara ünvanladıqları dildə əks olunmalıdır.

### 3. Prosesə xitam verilməsi məqsədilə şəxslərin barışdırılması istiqamətində qeyri-münasib dildən istifadə olunması

Məişət zorakılığı haqqında qanun, bu sahədə məsul olan qurumları “tərəflərin münasibətlərinin normallaşmasına və ailə münasibətlərinin bərpa olunmasına kömək göstərməyə” çağırır.[59] Bu tələb eyni qaydada cinayət elementləri olan işlərdə cinayət təqibini həyata keçirən orqanlara və işə müvafiq icra hakimiyyəti orqanı tərəfindən baxılmasını nəzərdə tutan işlərdə isə həmin icra hakimiyyəti orqanlarına şamil olunur.

Azərbaycanda normativ qanunvericilik bazası, müəyyən işlərdə qurbanın razılığı əsasında işə xitam verilməsinə icazə verir. Xüsusi ittiham qaydasında icraatla bağlı işlərdə qurbanın şikayətini geri götürməsi nəticəsində işə xitam verilməlidir.[60] Qanun həmçinin ictimai-xüsusi ittiham xarakterli bir sıra işlərdə cinayət törətmiş şəxsin, qurbanla barışması əsasında cinayət məsuliyyətindən azad edilməsini nəzərdə tutur.[61] Lakin bu maddənin tələbinə görə, bu normanın tətbiq oluna bilməsi üçün cinayəti törətmiş şəxsin məhkumluğu olmamalıdır, ictimaiyyət üçün təhlükəli olmamalıdır və “səbəb olduğu ziyanı aradan qaldırmış olmalı və ya ona görə qurbana təzminat ödəmiş” olmalıdır.[62]

[59]Məişət zorakılığı haqqında qanun, Maddə 7.0.4 və 8.0.8
[60] Cinayət Prosessual Məcəllə, Maddə 37.2, Maddə. 43.1.1, Maddə 47.1.
[61] Maddə 73, Azərbaycan Respublikası Cinayət Məcəlləsi. İlk dəfə böyük təhlükə törətməyən cinayət törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər.
[62]Maddə 73 Cinayət Məcəlləsi.

Məhkəmə müşahidəçiləri qeyd ediblər ki, məhkəmələr çox vaxt zorakılıq törədənlə qurbanı barışdıraraq işə xitam vermək üçün, bu prosessual vasitədən istifadə edirlər. Bu cür işlərdə məhkəmələr əsas diqqəti zorakılıq törətmiş şəxslə qurbanın barışması ehtimalının mahiyyətinə və qanunla nəzərdə tutulan digər tələblərə deyil, müdafiə tərəfin "ilk dəfə cinayət törətmiş olması" faktına yönəldirlər.

Məsələn, bir işdə məhkəmə dəfələrlə qurbandan xahiş edib ki, "barışıq" sözünü desin və bu məhkəmə iclas protokoluna qeyd olunsun, baxmayaraq ki, qurban bunu etmək istəməyib. Bu halda formal razılığın ifadə olunması, həmin işə xitam verilməsi üçün əsas ola bilərdi.

BMT-nin Xüsusi Məruzəçisinin Azərbaycanla bağlı qeyd etdiyi kimi: "Problemin həll edilməsilə bağlı hazırda mövcud olan sistem, şəxsin hüquqlarının qorunmasına deyil, ailənin birləşməsinə xidmət edir və bu hal qurbanların müdafiəsi və zorakılıq törədən şəxslərin məsuliyyəti anlayışına xidmət etmir."[63] Birləşmiş Millətlər Təşkilatının, "Qadına qarşı zorakılıqla bağlı qanunvericiliyə dair yaxşı təcrübələr" adlı sənədində qeyd olunduğu kimi, barışıq əksər hallarda qurbanın maraqlarına xidmət etmir.[64]

Zorakılıq törətmiş şəxslə qurban arasındakı gücün qeyri-bərarbərliyini nəzərə alsaq, məhkəmələrin məişət zorakılığı ilə bağlı işlərdə zoraklılığı törədənlə qurbanı barışığa sövq etmələri qanunun niyyətinə zidd ola bilər və beləliklə də qurbanı daha da təhlükəli vəziyyətə sala bilər.

Məişət zorakılığı ilə bağlı işlərdə, məhkəmələr ilk dəfə zorakılığa yol vermiş şəxslərlə bağlı sistematik şəkildə bu normanı tətbiq etməkdənsə, çalışmalıdırlar ki, hər işi, xüsusilə də qurbanın təhlükəsizliyi ilə əlaqədar işləri, öz fərdi xüsusiyyətlərinə görə araşdırsınlar və eyni zamanda, məişət zorakılığına dair işlərdə tərəflər arasında təbii qeyri-bərabərliyi diqqətdə saxlayaraq, zorakılıq törədənlə qurban arasında "barışığın" həqiqi xarakterini araşdırsınlar.

---

[63]BMT-nin Qadına qarşı zorakılıq üzrə Xüsusi Məruzəçisi, *supra*, 4-cü bənd.

[64]Sənəddə qeyd olunur ki, zorakılıq törətmiş şəxslə qurbanın arasında mediasiya problemli məsələdir, çünki: "[. . .] işin məhkəmə baxışına xitam verilməsi o deməkdir ki, hər iki tərəf razılaşmaq üçün bərabər gücə sahibdir, ehtimal yaradır ki, hər iki tərəf zorakılığa görə məsuliyyət daşıyırlar və zorakılıq törədən şəxsin məsuliyyətini azaldır." Bax: 43-cü səhifə, "Qadına qarşı zorakılıqla bağlı qanunvericiliyə dair yaxşı təcrübələr", 26-28 may 2008-ci il tarixdə BMT-nin Qadının İnkişafı Qrupu və BMT-nin Narkotiklər və Cinayət Şöbəsinin Vyanada keçirdiyi görüşdə Ekspertlər Qrupu tərəfindən hazırlanan Hesabat. Aşağıdakı səhifədə hesabatla tanış ola bilərsiniz: http://www.un.org/womenwatch/daw/egm/vaw_legislation_2008/Report%20EGMGPLVAW%20(final%2011.11.08).pdf, səhifəsə sonuncu dəfə 8 dekabr 2013-cü il tarixdə baxılıb.

# V. Yekun

Hesabatdan da açıq-aşkar göründüyü kimi, Azərbaycan hökuməti 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunu qəbul etməklə, qlobal problem olan məişət zorakılığının aradan qaldırılması üçün irəliyə doğru əhəmiyyətliaddım atmışdır. Bu öhdəlik, adı çəkilən sosial problemlə bağlı mövcud olan və beynəlxalq qaydada təmin olunan hüquqlar kontekstində nəzərdən keçirilməlidir. Qanunda əks olunan normativ hallar və Mülki Prosessual Məcəllə, İnzibati Məcəllə və digər aidiyyatı olan qanunlara edilən dəyişikliklər, Azərbaycanda məişət zorakılığı probleminin həlli istiqamətində başlanğıc addımdır. Qurbanların hüquqlarının qorunmasında məhkəmə sisteminin, xüsusilə hakimlərin və prokurorların əhəmiyyətli rolu var. Ona görə də qanunvericilik bazası inkişaf etdirilərək məhkəmələrin mövcud iş mexanizmini yaxşılaşdırmalıdır. Bununla yanaşı, hakimlər və prokurorlar mütəmadi olaraq məişət zorakılığı haqqında qanunla və məişət zorakılığı ilə bağlı dəyişiklik edilmiş qanunlarla bağlı təlim proqramlarına cəlb olunmalıdırlar. Sadəcə məişət zorakılığına yol vermiş şəxsə təsir etmək və qurbanın hüquqlarını ciddi şəkildə müdafiə etmək öhdəliyi, məişət zorakılığına səbəb olan qeyri-bərabərliyi aradan qaldıracaq.

# VI. Tövsiyələr

**Məhkəmə**:

- Məişət zorakılığı ilə bağlı işlər üzrə məhkəmə iclaslarında hakimlər, qanunda nəzərdə tutulan qaydada, qurbanlara hüquqlarını elan etməlidirlər. Xüsusilə, qurbanın nümayəndə ilə təmsil olunmadığı işlərdə hakimlər bu məsələ ilə bağlı daha da diqqətli olmalıdırlar.

- Məişət zorakılığı ilə bağlı cinayət işlərində hakimlər qurbanların ləyaqətinə və bərabərliyinə hörmətlə yanaşmalıdırlar.

- Məişət zorakılığı ilə bağlı cinayət işlərində zorakılığı törədən hər hansı məhkumluğu olmayan bir şəxsdirsə, hakimlərə tövsiyə olunur ki, tərəflərə Cinayət Məcəlləsinin 73-cü Maddəsi əsasında işin xitamına əsas verən barışıq təklif edərkən, ehtiyatlı olsunlar. Hakimlərə tövsiyə olunur ki, hər bir işin, xüsusilə qurbanların təhlükəsizliyi ilə bağlı olan işlərin hallarını fərdi qaydada dəqiq şəkildə araşdırsınlar və eyni zamanda, məişət zorakılığına dair işlərdə tərəflər

arasında təbii qeyri-bərabərliyi diqqətdə saxlayaraq, zorakılıq törədənlə qurban arasında “barışığın” həqiqi xarakterini araşdırsınlar.

**İcra hakimiyyəti orqanlarına:**

- İcra orqanlarına, Məişət Zorakılığı Qanununda nəzərdə tutulduğu kimi, məişət zorakılığının qarşısının alınmasının milli mexanizmini hazırlamaq istiqamətində işlərini davam etdirməsi tövsiyə olunur Xüsusilə də vacibdir ki, qanunla nəzərdə tutulmuş mühafizə orderinin verilməsi mexanizminin çalışması üçün doğru tədbirlər görülsün.

# VII. Əlavə

**2012-Cİ İL ƏRZİNDƏ MƏİŞƏT ZORAKILIĞI ZƏMİNİNDƏ BAŞ VERƏN CİNAYƏTLƏR**[65]

| | Qurbanların sayı | Onlardan neçəsi qadındır | Onlardan | |
|---|---|---|---|---|
| | | | 18 yaşlı qızlar | Hamilə qadınlar |
| **Cəmi** | **1633** | **1284** | **7** | **8** |
| daxildir: | | | | |
| qəsdən adam öldürmə | 42 | 28 | 2 | - |
| qəsdən adam öldürməyə cəhd | 14 | 12 | - | - |
| özünü öldürmə həddinə çatdırma | 3 | 3 | - | - |
| qəsdən sağlamlığa ağır zərər vurma | 17 | 10 | - | - |
| qəsdən sağlamlığa zərər vurma | 69 | 48 | - | 1 |
| qəsdən sağlamlığa az ağır zərər vurma | 441 | 325 | 2 | - |
| Döymə | 5 | 5 | - | - |
| Öldürmə və ya sağlamlığa ağır zərər vurma ilə hədələmə | 13 | 13 | - | 1 |
| Digər | 1029 | 840 | 3 | 6 |




[65]2012-ci il ərzində məişət zorakılığı (ailə münaqişəsi) zəminində baş verən cinayətlər, Azərbaycan Respublikası Statistika Komitəsi, http://www.stat.gov.az/source/crimes/indexen.php səhifəyə sonuncu dəfə 12 dekabr 2013-cü il tarixdə baxılıb.


2012-ci il üzrə baş vermiş məişət zorakılığı cinayətlərinin müvafiq növlərinin statistikası
Adam öldürməyə cəhd1%
Qəsdən sağlamlığa ağır zərər vurma 1%
Qəsdən adam öldürmə 3%
Qəsdən sağlamlığa az ağır zərər vurma 4%
Qəsdən sağlamlığa yüngül zərər vurma 27%
Döymə 1%
Öldürmə və ya bədənə ağır xəsarət yetirməklə hədələmə 1%
Digər cinayətlər 63%